# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

## Koronavirus (COVID-19) pandemiyası dövründə ictimai iaşə müəssisələrinə müştəri qəbulu ilə bağlı bəzi məsələlərin tənzimlənməsi barədə

"Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları"na əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Koronavirus (COVID-19) pandemiyası dövründə ictimai iaşə müəssisələrinə müştəri qəbulu zamanı adambaşına müəyyən edilən sıxlıq normaları" təsdiq edilsin (əlavə olunur).

2. Müəyyən edilsin ki:

2.1. koronavirus (COVID-19) pandemiyası dövründə insanların sıx toplaşmasının xəstəliyin yayılma intensivliyinə birbaşa təsirini nəzərə alaraq, ictimai iaşə müəssisələrinə müştəri qəbulu qüvvədə olan norma və qaydalardan 2 dəfə az olmalı və müvafiq olaraq hər adambaşına müəyyən edilən sahə ikiqat artırılmalıdır;

2.2. qida qəbulu zallarında oturacaqların ara məsafəsi eyni masa arxasında 1 metrdən, masalararası məsafələr isə 2 metrdən az olmamalıdır;

2.3. hər bir ictimai iaşə müəssisəsinin qarşısındakı lövhədə həmin müəssisənin qida qəbulu yerlərinin (zallar, otaqlar və s.) ümumi sahəsi, oturacaq yerlərinin sayı, masalararası məsafə, adambaşına müəyyən edilən sıxlıq normaları göstərilməlidir.

3. Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və yerli icra hakimiyyəti orqanları bu Qərardan irəli gələn məsələləri həll etsinlər.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş Naziri**

Bakı şəhəri, 6 iyul 2020-ci il

№ 237

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2020-ci il 6 iyul tarixli
237 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

## Koronavirus (COVID-19) pandemiyası dövründə ictimai iaşə müəssisələrinə müştəri qəbulu zamanı adambaşına müəyyən edilən sıxlıq normaları

| Qida qəbulu zalları | Restoranlar üçün adambaşına düşən sahə (m$^2$) | | Yeməkxanalar üçün adambaşına düşən sahə (m$^2$) | | Kafelər, qəlyanaltılar, gənclər və uşaqlar üçün kafelər (fast-food) üçün adambaşına düşən sahə (m$^2$) | | | Barlar üçün adambaşına düşən sahə (m$^2$) | | Ali təhsil müəssisələrinin yeməkxanaları üçün adambaşına düşən sahə (m$^2$) | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 100 nəfərə qədər | 100 nəfərdən sonrakı hər adam üçün əlavə | 50 nəfərə qədər | 50 nəfərdən sonrakı hər adam üçün əlavə | 50 nəfərə qədər | 50-200 nəfər arası hər adam üçün əlavə | 200 nəfərdən sonrakı hər adam üçün əlavə | 50 nəfərə qədər | 50 nəfərdən sonrakı hər adam üçün əlavə | 100 nəfərə qədər | 100 nəfərdən sonrakı hər adam üçün əlavə |
| Özünəxidmət | - | - | 4,72 m$^2$ | 4,24 m$^2$ | 3,84 m$^2$ | 3,92 m$^2$ | 3,82 m$^2$ | 4,24 m$^2$ | 3,76 m$^2$ | 4,28 m$^2$ | 4,16 m$^2$ |
| o cümlədən qida paylayıcı xətt qida qəbulu zalına daxil olduqda | - | - | 7,2 m$^2$ | 3,6 m$^2$ | 6,4 m$^2$ | 3,2 m$^2$ | 3,2 m$^2$ | 3,2 m$^2$ | 3,2 m$^2$ | 3,6 m$^2$ | 3,6 m$^2$ |
| Xörəkpaylayan-lar vasitəsilə xidmət | 5,08 m$^2$ | 4,4 m$^2$ | - | - | 3,64 m$^2$ | 3,5 m$^2$ | 3,5 m$^2$ | 3,84 m$^2$ | 3,36 m$^2$ | - | - |
| o cümlədən qida paylayıcı xətt qida qəbulu zalına daxil olmadıqda | 3,6 m$^2$ | 3,6 m$^2$ | - | - | 2,8 m$^2$ | 2,8 m$^2$ | 2,8 m$^2$ | - | - | - | - |
| o cümlədən qida paylayıcı xətt qida qəbulu zalına daxil olduqda | - | - | - | - | - | - | - | 2,8 m$^2$ | 2,8 m$^2$ | - | - |